

Azərbaycan Respublikası İqtisadi İslahatların
Təhlili və Kommunikasiya Mərkəzi

# İXRAC İCMALI

İyun 2021

http://ereforms.gov.az
info@ereforms.org

**AZEXPORT.AZ**
**Made in Azerbaijan**

# “ƏLƏT İQTİSADİ ZONASININ YARADILMASI, ƏMİNƏM Kİ, AZƏRBAYCANIN QEYRİ-NEFT SEKTORUNUN, İQTİSADİYYATIMIZIN QEYRİ-NEFT SEKTORUNUN İNKİŞAFINA XİDMƏT GÖSTƏRƏCƏKDİR”.

Azərbaycan Respublikasının Prezidenti
cənab İLHAM ƏLİYEVİN
2021-ci il 1 iyul tarixində
Ələt Azad İqtisadi Zonasının təməlqoyma
mərasimindəki nitqindən



“Eyni zamanda, burada yaradılacaq infrastruktur investorlar üçün cəlbedici olacaq, ölkəmizə yeni texnologiyalar gələcək, yeni iş yerləri yaradılacaq və burada işləyəcək Azərbaycan vətəndaşlarının əməkhaqqı yüksək olacaq, rəqabətqabiliyyətli məhsul istehsal ediləcək və bizim qeyri-neft sektorumuzun ixrac imkanları genişlənəcək. Çünki bizim ümumi daxili məhsulumuzun strukturuna baxsaq görərik ki, neft sektoru artıq üstünlük təşkil etmir. Ancaq ixraca baxdıqda görərik ki, ixracımızın mütləq əksəriyyəti neft-qaz məhsulları ilə təmin edilir.

Ona görə bax, burada da islahatların aparılması və xarici investorların xüsusilə sənaye sahəsinə cəlb edilməsi əsas amillərdən biri idi. Əlbəttə ki, bu ideya çoxdan müzakirə olunurdu. Ancaq bu layihənin reallaşdırılması üçün vaxt düzgün seçilməli idi, biz buna hazır olmalı idik və hesab edirəm ki, bu gün biz buna hazırıq”.

# MÜNDƏRİCAT


Qeyri-neft sektoru üzrə ixraca dair məlumat ________ səh. 3

Qeyri-neft sektoru üzrə əsas ixracatçı subyektlərin reytinqi ________ səh. 10

2021-ci ilin yanvar-may aylarında “Azərkosmos” ASC 19,4 milyon ABŞ dolları dəyərində xidmət ixrac etmişdir ________ səh. 13

2021-ci ilin yanvar-may aylarında Azərbaycanda xaricilər bank kartları vasitəsi ilə 144,8 milyon manatlıq əməliyyat aparmışlar ________ səh. 14

Azexport.az portalına 2021-ci ilin yanvar-may aylarında 194,3 milyon ABŞ dolları məbləğində ixrac sifarişi daxil olmuşdur ________ səh. 15

2021-ci ilin iyun ayında “Bir Pəncərə” İxraca Dəstək Mərkəzindən 22 milyon ABŞ dolları dəyərində qeyri-neft ixracı həyata keçirilmişdir ________ səh. 18

# 1

# QEYRİ-NEFT SEKTORU ÜZRƏ İXRACA DAİR MƏLUMAT

2021-ci ilin **yanvar-may** ərzində Azərbaycanın **ixracı** **8 milyard ABŞ dolları** dəyərində olunmuşdur

2021-ci ilin **yanvar-may aylarında** qeyri-neft sektoru üzrə ixrac **907,6 milyon ABŞ dolları** təşkil etmişdir

2021-ci ilin yanvar-may ayları ərzində Azərbaycanın ixracı 8 milyard ABŞ dolları olub. Qeyri-neft sektoru üzrə **907,6 milyon ABŞ dolları** dəyərində ixrac reallaşdırılıb. Qeyri-neft sektoru üzrə ixrac 2020-ci ilin müvafiq dövrü ilə müqayisədə 184 milyon ABŞ dolları və ya **25,8 faiz** artıb.

2021-ci ilin may ayı ərzində ərzində ixrac edilən qeyri-neft sektoruna aid malların siyahısında pambıq mahlıcı (44,7 milyon ABŞ dolları) birinci, qızıl (22,8 milyon ABŞ dolları) ikinci və kartof (19,2 milyon ABŞ dolları) üçüncü olub.

Bu ilin yanvar-may ayı ərzində Rusiyaya **279,5 milyon**, Türkiyəyə **255 milyon**, İsveçrəyə **91,1 milyon**, Gürcüstana **69,1 milyon** və ABŞ-a **29,5 milyon** ABŞ dolları dəyərində qeyri-neft sektoruna aid mal ixrac olunub.

2021-ci ilin yanvar-may ayları ərzində ixrac edilən qeyri-neft sektoruna aid malların siyahısında pambıq mahlıcı (108,6 milyon ABŞ dolları) birinci olub. Bu siyahıda qızıl ikinci (87,4 milyon ABŞ dolları), pomidor (tomat) isə üçüncü (87 milyon ABŞ dolları) yerdə qərarlaşıb.

2021-ci ilin may ayı ərzində Azərbaycanın ümumi ixracı 1,6 milyard ABŞ dolları, qeyri-neft sektoru üzrə ixrac **210,5 milyon ABŞ dolları** təşkil edib. Qeyri-neft sektoru üzrə ixrac ötən ilin may ayı ilə müqayisədə 22 faiz və ya 38 milyon ABŞ dolları daha çoxdur. Habelə, 2021-ci ilin qeyri-neft sektorunun tərkibi üzrə yeyinti məhsullarının ixracı 85,4 milyon ABŞ dolları, qeyri-yeyinti məhsulları üzrə isə 125,1 milyon ABŞ dolları təşkil edib. 2021-cu ilin may ayında qeyri-neft sektoruna aid ən çox mal ixrac edilən ölkələrin siyahısında Rusiya (91 milyon ABŞ dolları) birinciliyə yüksəlib. Bu siyahıda Türkiyə ikinci (38,7 milyon ABŞ dolları) və İsveçrə üçüncü (22,9 milyon ABŞ dolları) olub.

MADE IN AZERBAIJAN

2021-ci ilin **YANVAR-MAY AYLARINDA** qeyri-neft sektoru üzrə **5 ƏSAS İXRAC ÖLKƏSİ**
(2020-ci ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)



# 2021-ci ilin **MAY AYINDA** qeyri-neft sektoru üzrə **5 ƏSAS İXRAC ÖLKƏSİ**
(2020-ci ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)

2021 İXRAC İCMALI İYUN



# 2021-ci ilin **YANVAR-MAY AYLARINDA** ixrac olunan əsas **QEYRİ-NEFT MALLARININ SİYAHISI**
(2020-ci ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)

2021 İXRAC İCMALI İYUN

| Mal | 2021 | 2020 |
|---|---|---|
| Pambıq mahlıcı | 108,6 | 48,6 |
| Qızıl | 87,4 | 64,7 |
| Tomat (pomidor) | 87 | 123,1 |
| İlkin formalı polipropilen | 44,2 | 26,5 |
| Xüsusi kütləsi 0,94-dən az olan ilkin formalı polietilen | 40,4 | 31,9 |
| Qabığı təmizlənmiş meşə fındığı | 37,8 | 51 |
| Xurma | 31,9 | 14,1 |
| Elektrik enerjisi | 30,3 | 41 |
| Alüminium ərintilərindən düzbucaqlı plitələr | 21,4 | 5,7 |
| Digər | 418,5 | 321,1 |

2021 İXRAC İCMALI İYUN

# 2021-ci ilin **MAY AYINDA** ixrac olunan əsas **QEYRİ-NEFT MALLARININ SİYAHISI**

(2020-ci ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)







| | 2021 | 2020 |
|---|---|---|
| Tomat (pomidor) | 44,7 | 49,7 |
| Qızıl | 22,8 | 21 |
| Kartof | 19,2 | 19,9 |
| Pambıq mahlıcı | 12,2 | 4,3 |
| Digər yağlar və məhsulları | 7,9 | 1,8 |







| | 2021 | 2020 |
|---|---|---|
| Elektrik enerjisi | 7,2 | 6,7 |
| İlkin formalı polipropilen | 7,2 | 5,5 |
| Xüsusi kütləsi 0,94-dən az olan ilkin formalı polietilen | 6,8 | 3,9 |
| Mis filizləri və konsentratları | 4,5 | 2 |
| Digər | 78 | 57,8 |

# MAY AYINDA ƏN ÇOX İXRAC EDİLƏN QEYRİ-NEFT SEKTORUNA AİD MALLAR (milyon ABŞ dolları ilə)

2021 İXRAC İCMALI İYUN

| Ay | 2019 | 2020 | 2021 |
|---|---|---|---|
| Yanvar | Xurma 12,6 | Qızıl 16,3 | Xurma 16,7 |
| Fevral | Elektrik enerjisi 19,4 | Pambıq mahlıcı 19,5 | Qızıl 24,7 |
| Mart | Fındıq ləpəsi 13,7 | Tomat (pomidor) 19,2 | Pambıq mahlıcı 31,4 |
| Aprel | Tomat (pomidor) 24,2 | Tomat (pomidor) 29,4 | Pambıq mahlıcı 27,8 |
| May | Tomat (pomidor) 54,6 | Tomat (pomidor) 49,7 | Tomat (pomidor) 44,7 |

2

# QEYRİ-NEFT SEKTORU ÜZRƏ ƏSAS İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ

## **2021-ci ildə may ayında** qeyri-neft sektoru üzrə **əsas ixracatçı subyektlərin reytinqi**

“İxrac İcmalı” tərəfindən qeyri-neft sektoru üzrə 2021-ci ilin yanvar-may ayları üzrə həyata keçirilən ixracla bağlı həm qeyri-dövlət, həm də dövlətə məxsus ixracatçı subyektlərin reytinqi tərtib edilmişdir.

2021-ci ilin yanvar-may ayları üzrə hazırlanan qeyri-dövlət ixracatçı subyektlərin reytinqində ilk onluqda aşağıdakı şirkətlər təmsil olunurlar: "MKT İstehsalat Kommersiya" MMC, "P-Aqro" MMC, "Azərbaycan İnterneyşnl Mayninq Kompani Limited Şirkəti"nin Azərbaycan Respublikasındakı nümayəndəliyi, "Baku Steel Company", "Sun Food" MMC, "Azərbaycan Şəkər İstehsalat Birliyi" MMC, "Ram Beynəlxalq Nəqliyyat və Ticarət LTD" MMC, "Metal Trader LTD" MMC, "Local Garden" və “Fruit city Group” MMC.

Qeyri-neft sektoru üzrə ixrac əməliyyatlarında iştirak edən dövlətə məxsus olan şirkətlərin siyahısına isə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin “Marketinq və İqtisadi Əməliyyatlar İdarəsi” başçılıq edir. Daha sonra bu siyahıda aşağıdakı şirkətlər təmsil olunurlar: “Socar Polymer” MMC, "Azergold" QSC, "Azəralüminium" MMC, "Azərpambıq Aqrar Sənaye Kompleksi" MMC, "Azərenerji" ATSC, "Azərbaycan Dəmir Yolları" QSC, "Azəripək" MMC, "Caspian Geo" MMC, "Azərtütün Aqrar Sənaye Kompleksi" MMC.

Bu ixracatçıların reytinqi ilə bağlı məlumatla təqdim olunan infoqrafikalardan tanış ola bilərsiniz.



## 2021-ci ilin **YANVAR-MAY AYLARINDA** qeyri-neft sektoru üzrə **QEYRİ-DÖVLƏT İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ** (Ötən ilin eyni dövrü ilə müqayisədə, ABŞ dolları ilə)

2021 İXRAC İCMALI İYUN



## 2021-ci ilin **YANVAR-MAY AYLARINDA** qeyri-neft sektoru üzrə **DÖVLƏTƏ MƏXSUS ƏSAS İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ** (Ötən ilin eyni dövrü ilə müqayisədə, ABŞ dolları ilə)




* "Socar Polymer" MMC dövlət-özəl sektor tərəfdaşlığı nəticəsində yaranan müəssisədir.

# 2021-ci ilin **YANVAR-MAY AYLARINDA "AZƏRKOSMOS" ASC 19,4 MİLYON ABŞ DOLLARI** dəyərində **XİDMƏT İXRAC ETMİŞDİR**

2021 İXRAC İCMALI İYUN



2021-ci ilin yanvar-may aylarıda "Azərkosmos" ASC tərəfindən dünyanın **29 ölkəsinə** xidmət (peyk telekommunikasiya xidmətləri və optik peyk xidmətləri) ixrac edilmişdir. "Azərkosmos" ASC-nin xidmət ixracından əldə etdiyi gəlir onun ümumi gəlirlərinin **90 faizini** təşkil etmişdir.

2021-ci ilin may ayında isə "Azərkosmos" ASC dünyanın **22 ölkəsinə 2,5 milyon ABŞ dolları** dəyərində xidmət ixrac etmişdir.




## 2021-ci ilin yanvar-may aylarında "Azərkosmos" ASC-nin xidmət ixrac etdiyi 5 əsas ölkə

| Ölkə | Məbləğ |
|---|---|
| ABŞ | 5,1 mln $ |
| Birləşmiş Krallıq | 4,1 mln $ |
| Fransa | 3,8 mln $ |
| Malayziya | 3,6 mln $ |
| BƏƏ | 727 min $ |

## Azərbaycana gələn **XARİCİ VƏTƏNDAŞLARIN BANK KARTLARI VASİTƏSİ** ilə apardıqları əməliyyatlar (milyon manatla)

| | 2019 | 2020 | 2021 |
|---|---|---|---|
| Yanvar | 88,3 | 85,2 | 25 |
| Fevral | 85,3 | 72,9 | 25,5 |
| Mart | 98 | 53,9 | 33,4 |
| Aprel | 103,2 | 19,7 | 28,3 |
| May | 100,9 | 24,3 | 32,6 |
| **Cəmi** | **475,7** | **256** | **144,8** |

3

# AZEXPORT.AZ PORTALINA 2021-Cİ İLİN YANVAR-MAY AYLARINDA 194,3 MİLYON ABŞ DOLLARI MƏBLƏĞİNDƏ İXRAC SİFARİŞİ DAXİL OLMUŞDUR

Portala daxil olan İXRAC SİFARİŞLƏRİNİN **ümumi dəyəri** **2 milyard 390 milyon** ABŞ dolları təşkil etmişdir

2021-ci ilin may ayında isə portala daxil olan ixrac sifarişlərinin dəyəri **30,1 milyon ABŞ dolları** təşkil edib. 2021-ci ilin yanvar-may aylarında Azexport.az portalına **194,3 milyon ABŞ dolları** dəyərində ixrac sifarişləri daxil olub. 2021-ci ilin may ayında Azexport.az portalına ən çox ixrac sifarişi pambıq mahlıcı, toyuq əti, tütün, pambıq toxumu, noxud, meyvə tamlı süd, tikinti materialı, toyuq yumurtası, çay, şərab, nar şirəsi, bitki yağı, biyan kökü, şirniyyat, tibbi zəli və s. mallara daxil olmuşdur

Məlumat üçün qeyd edək ki, 2017-ci ilin yanvar ayından 2021-ci ilin 31 may tarixinə kimi (53 ay ərzində) Azexport.az portalına dünyanın 145 ölkəsindən daxil olan ixrac sifarişlərinin dəyəri 2 milyard 390 milyon ABŞ dolları təşkil edib.

# **AZEXPORT.AZ PORTALINA** daxil olan **İXRAC SİFARİŞLƏRİNİN MƏBLƏĞİ**

2021 İXRAC İCMALI İYUN

2017-ci il - **475 mln $**

2018-ci il - **514,1 mln $**

2019-cu il - **595,7 mln $**

2020-ci il - **610,8 mln $**




2021-ci il

Yanvar - **53,9 mln $**

Fevral - **35,3 mln $**

Mart - **42 mln $**

Aprel - **33 mln $**

May - **30,1 mln $**

2021-ci il - **194,3 mln $**



Son **53 ay** ərzindəki sifarişlərin cəmi - **2 389,9 mln $**

# 2021-ci ilin **MAY AYINDA** AZEXPORT.AZ PORTALINDAN **İXRAC SİFARİŞİ ALAN ƏSAS MALLAR**

2021 İXRAC İCMALI İYUN

**Pambıq mahlıcı**



**Toyuq əti**



**Tütün**



**Pambıq toxumu**



**Noxud**



**Meyvə tamlı süd**



**Tikinti materialı**



**Toyuq yumurtası**



**Çay**



**Şərab**



**Nar şirəsi**



**Bitki yağı**



**Biyan kökü**



**Şirniyyat**



**Tibbi zəli**



4

# 2021-Cİ İLİN İYUN AYINDA "BİR PƏNCƏRƏ" İXRACA DƏSTƏK MƏRKƏZİNDƏN 22 MİLYON ABŞ DOLLARI DƏYƏRİNDƏ QEYRİ-NEFT İXRACI HƏYATA KEÇİRİLMİŞDİR

"Bir Pəncərə" İxraca Dəstək Mərkəzinə 2021-ci ilin iyun ayı ərzində hüquqi və fiziki şəxslər tərəfindən **137 dəfə** müraciət daxil olunub. Ümumilikdə **165 ədəd sertifikat** ( 119 ədəd mənşə, 28 ədəd baytarlıq, 18 ədəd CİTES) verilib.

Cari ilin iyun ayı ərzində "Bir Pəncərə" İxraca Dəstək Mərkəzi vasitəsilə **22 (21,954,574.84) milyon ABŞ dolları** dəyərində ixrac həyata keçirilmişdir. Hüquqi və fiziki şəxslər tərəfindən qiymətli külçələr, nar, viski, rakı, ağ və qırmızı şərablar, alma, albalı şirələri, qarışıq şirələr, nar konsentrantı, narşərab, tibbi zəli, iri və xırdabuynuzlu heyvanların daxili orqanları, iribuynuzlu heyvan dərisinin sənayedə kəsilməsi nəticəsində yığılan faydasız tullantılar, iribuynuzlu heyvan bağırsağı, pendir, elektron tullantı, dondurma, oksigen maye qazı, polad armatur yayması, polad məftil, polad boru, polad kvadrat pəstah, Dağıstan turunun ixracı həyata keçirilib.

Yuxarıda adı çəkilən məhsullar arasında qiymətli külçələr (60,3%), polad borular (31,1%), pendir (4,2%), meyvə şirələri (1,8%), iribuynuzlu heyvanın daxili orqanları (0,5%) ixracı üstünlük təşkil etmişdir. Sertifikat verilən məhsullar 20 ölkəyə ixrac edilmişdir. İxracın Avropa ölkələrinə (İtaliya, İsveçrə, İspaniya, Finlandiya, Danimarka) düşən payı-(61,3%), MDB ölkələrinə (Qazaxıstan, Özbəkistan, Rusiya, Belarus) düşən payı (13,2%), Türkiyə-(18,3%), ABŞ (0,2%) təşkil edir. O cümlədən, Gürcüstan, Ukrayna, Fələstin, Hindistan, Çin, BƏƏ, Tailand, Malayziya, Banqladeşə ixracda reallaşdırılmışdır. İxrac olunan məhsulların hava nəqliyyatı ilə (60,4%), avtomobil ilə (29,6%), dəmiryolu nəqliyyatı (8,7%), qarışıq nəqliyyat ilə ixracı isə (1,3%) təşkil edir.

2017-ci ildən 2021-ci ilin iyun ayına qədər "Bir Pəncərə" İxraca Dəstək Mərkəzi vasitəsilə ixrac edilən mal və məhsulların dəyəri **575 milyon ABŞ dolları** təşkil edib.

2021-ci ilin **İYUN AYINDA** “Bir Pəncərə” İxraca Dəstək Mərkəzi vasitəsilə həyata keçirilən **İXRACIN STATİSTİKASI** (milyon ABŞ dolları ilə)



# Cari ilin **İYUN AYINDA “Bir Pəncərə” İxraca Dəstək Mərkəzinin** təqdim etdiyi **SERTİFİKATLARIN ÖLKƏLƏR ÜZRƏ BÖLGÜSÜ**

**AVROPA ÖLKƏLƏRİ**
(İtaliya, İsveçrə, İspaniya, Finlandiya, Danimarka)
**61,3%**

**TÜRKİYƏ**
**18,3%**




**ABŞ**
**0,2%**

**MDB ÖLKƏLƏRİ**
(Qazaxıstan, Özbəkistan, Rusiya, Belarus)
**13,2%**

**DİGƏR**
**7%**

## Cari ilin **İYUN AYINDA "Bir Pəncərə" İxraca Dəstək Mərkəzi** vasitəsilə **ƏN ÇOX İXRAC OLUNAN MƏHSULLARIN BÖLGÜSÜ**



# Cari ilin **İYUN AYINDA "Bir Pəncərə" İxraca Dəstək Mərkəzi** vasitəsilə ixrac edilən məhsulların **NƏQLİYYAT ÜZRƏ BÖLGÜSÜ**

2021 İXRAC İCMALI İYUN



**İQTİSADİ İSLAHATLARIN TƏHLİLİ VƏ KOMMUNİKASİYA MƏRKƏZİNİN**
**"BİR PƏNCƏRƏ" İXRACA DƏSTƏK MƏRKƏZİ**


AZ 1073, Bakı ş., Yasamal r., Q. Xəlilov küç., 47
47, Khalilov str., Yasamal district, Baku
Баку, Ясамальский район, ул. Г. Халилова, 47

Tel.: (+994 12) 521 25 35
E-mail: info@ereforms.org

www.iqtisadiislahat.org
www.ereforms.org
www.ecoreform.az

/iqtisadiislahat

/BİR PƏNCƏRƏ İxraca Dəstək Mərkəzi






Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən "İxrac İcmalı" jurnalı 11 yanvar 2018-ci il tarixində N4160 nömrəsi ilə mətbu nəşrlərin reyestrinə daxil edilmişdir.


http://ereforms.gov.az

/iqtisadiislahat


Bakı, Yasamal rayonu,
Q. Xəlilov küçəsi 47, AZ 1073
Tel.: (+ 994) 12 521 25 35
info@ereforms.org


